# HACIQABUL

№ 06
(708)

02 aprel
2019-cu il

Hacıqabul rayon İcra Hakimiyyətinin qəzeti


# Tarixin yaddaşına qanla yazılmış gün - Azərbaycanlıların soyqırımı günü





***1918-ci ilin mart-aprel aylarında daşnak-bolşevik silahlı dəstələri tərəfindən Azərbaycan xalqına qarşı xüsusi qəddarlıqla törədilmiş soyqırım cinayətlərindən 101 il ötür. O, dövrdə Bakı şəhərində, eləcə də Azərbaycanın bir çox şəhər və kəndlərində on minlərlə dinc sakinin etnik və dini mənsubiyyətə görə məhv edilməsi, yaşayış məntəqələrinin dağıdılması, mədəniyyət abidələrinin, təsərrüfatların yerlə yeksan edilməsi "Böyük Ermənistan" xülyası naminə erməni şovinistlərinin xalqımıza qarşı mərhələ-mərhələ həyata keçirdikləri etnik təmizləmə siyasətinin ən qanlı səhifələrindən birini təşkil etmişdir.***

31 mart soyqırımı qurbanlarının anım günü ilə əlaqədar Hacıqabul rayonunda tədbir keçirilmişdir.

Əvvəlcə tədbir iştirakçıları rayonumuzun Dağüstü massivində salınmış Şəhidlər Xiyabanı Abidə Kompleksini ziyarət edərək abidə önünə gül dəstələri düzmüşlər. Sonra tədbir rayon Heydər Əliyev Mərkəzində davam etdirilmişdir. Soyqırım qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.



Tədbiri açan rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarov qeyd etmişdir ki, yüz illər boyu Azərbaycan xalqına qarşı davam etmiş erməni dəhşətləri 1918-ci ilin 31 martında özünün pik nöqtəsinə çatmışdır.

31 mart, 1-2 aprel Bakı qırğınları zamanı erməni quldur dəstələri üç istiqamətə bölünərək Azərbaycanın bütün bölgələrinə səpələnmiş, kütləvi qırğınlar törətmişlər.

Həmin dövrdə Hacıqabulun ərazisində yerləşən 17 kənddə qırğınlar törədilmiş, dinc sakinlər öldürülmüş, yaşayış məntəqələri yandırılmış, dağıdılmış, talan edilmişdir.

Rayonun Navahı kəndində 955 nəfər, Qubalıbaloğlan kəndində 535 nəfər, Rəncbər kəndində 137 nəfər, Padar kəndində 120 nəfər, Abdulabad kəndində 90 nəfər, Şorbaçı kəndində 50 nəfər, Meyniman kəndində 45 nəfər, Paşalı kəndində 40 nəfər, Xilə kəndində 11 nəfər sakin ən qəddar üsullarla qətlə yetirilmişdir.

İnsanlara külli miqdarda maddi və mənəvi ziyan vurulmuş, evlər talan olunmuş, yandırılmış, heyvanlar məhv edilmiş, ermənilər tərəfindən aparılmışdır.

1918-ci ilin mart-aprel aylarında xalqımıza qarşı törədilən soyqırımların, amansız qətliamların bir məqsədi var idi. Xalqımızı milli etnos kimi yer üzündən silmək, tarixi ata-baba torpaqlarımıza yiyələnmək. Minlərlə azərbaycanlı əvvəlcədən düşünülmüş soyqırımı hadisələrinin qurbanı olub.

Tədbirdə çıxış edən Qubalıbaloğlan kənd İƏD üzrə nümayəndə Mehman Nəzərov, rayon Arxiv İdarəsinin müdiri Vüsal Nağıyev, tarix müəllimi Mübariz Xəlilov, N saylı hərbi hissənin tərbiyə bölməsinin müdiri Samir İbayev, Talış kənd orta məktəbin tarix müəllimi Töhfə Hacıyeva çıxış edərək qeyd etdilər ki, 1918-ci il azərbaycanlılara qarşı törədilmiş soyqırımı tarixə unudulmaz, qara hərflərlə həkk olunmuş bir gündür. Lakin tarix göstərir ki, nə qədər soyqırımlar törədilsə də, ermənilər xalqımızın birliyini, mübarizə əzmini qıra bilməyibdir.

***"Hacıqabul"***

# Aprel döyüşlərinin qəhrəmanı

**Azərbaycanın hərb tarixinə qızıl hərflərlə həkk olunmuş 2016-cı ilin Aprel zəfərindən bizi 3 illik zaman kəsiyi ayırır.**

**2016-cı il aprelin 1-dən 5-dək Azərbaycan ordusu öz doğma torpaqlarının müdafiəsinə qalxaraq uğurlu əks hücum əməliyyatı keçirdi və düşmənə sarsıdıcı zərbələr endirdi. Ordumuzun müzəffər döyüş bacarığı, zabit və əsgərlərimizin şücaət və qəhrəmanlığı nəticəsində Füzuli, Cəbrayıl, Ağdərə rayonlarının minlərlə hektar ərazisi erməni işğalından azad edildi, bir neçə strateji yüksəklik, o cümlədən Lələtəpə yüksəkliyi ələ keçirilərək ordumuzun nəzarətinə götürüldü. Aprel döyüşləri həmçinin, xalqımızın vətənpərvərlikn ruhunu, qələbəyə inamını daha da artırdı.**

Səh. 3-də

## Dövlət başçısına minnətdarlıq

***Son aylarda sosial təminatla əlaqədar cənab Prezidentin imzaladığı fərman və sərəncamlar bir daha onu göstərdi ki, Prezident xalqına xidmət edir, xalqının güzəranının yaxşılaşdırılması onun gündəlik prioritet məsələsidir.***

# Minlərlə ailə sevindi

Müxtəlif təbəqələrdən olan insanların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində atılan addımlar məni də sevindirir.

Cənab Prezidentimiz ölkəyə rəhbərlik etdiyi gündən həmişə Azərbaycan xalqının yanında olmuş, onların bütün sosial problemlərinin həllinə çalışmışdır.

Aztəminatlı ailələrin güzəranının yaxşılaşdırılması, hər il əmək haqları, pensiya və təqaüdlərin artırılması ilə insanların sosial vəziyyətinin yaxşılaşdırılmasına xidmət edir.

Bu günlərdə ölkə başçısının verdiyi sərəncamlarla 10 minlərlə insanın əməkhaqqı, pensiya və təqaüdlərində nəzərəçarpacaq dərəcədə artımlar olmuşdur.

Mən 81 manat pensiya alırdım. İndi mənim pensiyam 160 manat olmuşdur. Bunun üçün dövlət başçısına təşəkkürümü bildirirəm.

***Cəfər Piriyev,***
***Qubalıbaloğlan kənd sakini***

# Dövlətin dəstəyini daim hiss edirik

**Prezident İlham Əliyev 2019-cu ildə əhalinin sosial müdafiəsi baxımından mühüm dəyişikliklər olacağını bəyan etmişdi. Dövlət başçısının cari ilin əvvəlindən bu sahədə atdığı bütün addımlar biz sadə vətəndaşlar tərəfindən sevinclə qarşılanır. Bu dövlətin öz vətəndaşına sahib çıxması, onun problemlərinin həllini qarşıya məqsəd qoymasından irəli gəlir.**

Cavan ailəyəm. Evimin təmiri ilə bağlı ABŞ dolları ilə kredit götürmüşdüm. Baş verən devalvasiya nəticəsində kreditin ödənilməsində çətinliklərlə qarşılaşırdım. Cənab prezidentin 28 fevral 2019-cu ildə imzaladığı "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" fərmanı bizə bu çətinlikdən çıxmağa kömək etdi. Həmin fərman tək bizim ailəni yox, minlərlə bizim vəziyyətdə olan ailələri də sevindirdi. Buna görə dövlət başçısına bir daha dərin minnətdarlığımızı bildiririk və deyirik ki, biz hər zaman bizə bu cür qayğı göstərən ölkə rəhbərinin yanındayıq.

***İsmayıl İbrahimov,***
***Hacıqabul şəhər sakini***

# Hacıqabullular baharın gəlişini və Novruz bayramını şən və mənalı qarşıladılar

***Novruz xalqımızın tarixi yaddaşından süzülüb gələn ənənələri yaşadan, keçmişimizi və gələcəyimizi bir-biri ilə bağlayan bayramdır.***

**Hər bir xalqın milli-mənəvi dəyərlərinin qorunmasında və inkişafında tarixi şəxsiyyətlərin də üzərinə böyük vəzifələr düşür. Ulu öndər Heydər Əliyevin tariximiz qarşısındakı xidmətləri sırasına Novruzun yenidən xalqımıza qaytarılması kimi ümummilli məsələ də var. Çünki məhz ulu öndərin**












**siyasətində milli bayramımız olan Novruz ötən əsrin 70-80-cı illərində əvvəlki dövrlərlə müqayisədə kütləvi qeyd olunmağa başladı.Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə Novruz təntənələri xalqımızın həyatına birdəfəlik daxil oldu.**

Bu gün respublika Prezidenti İlham Əliyev də milli-mənəvi irsimizə xüsusi diqqətlə yanaşır. Novruzun gəlişi ilə bağlı dövlət başçısının hər il Azərbaycan xalqına ünvanladığı təbriklər Onun milli-mənəvi dəyərlərimizə böyük ehtiramla yanaşdığını göstərir.

Bu bayram həm adi insan, həm millət, həm xalq, həm də dövlət bayramıdır. Təbiətin oyanışı, həyatın canlanması, ruzi-bərəkət, gözəllik, təravət rəmzi olan Novruz bayramı münasibəti ilə Hacıqabul rayonunda ümumrayon şənliyi keçirildi. Al-əlvan geyimli oğlan və qızlar, milli geyimli uşaqlar, müxtəlif idman oyunları nümayiş etdirən kiçik idmançılar tədbirdə xoş əhval-ruhiyyə yaradırdı. Bəzənmiş bayram xonçaları, səmənilər masaların üzərini bəzəyirdi. Rayon gəncləri üçün istifadəyə verilmiş şəhər stadionunda böyük bayram tonqalı ucaldılmışdı. Bayram tonqalını alışdıran RİH Başçısı Əhməd Muxtarov şənlikdə iştirak etmək üçün stadiona gəldi. Burada bir tərəfdə ana-bacılarımızın bişirdiyi təndir çörəyinin ətri, bir tərəfdə qaynayan samovarların xoş ətri ətrafa yayılmışdı.

Meydana daxil olan Dədə Qorqud və Bahar qız xeyir-dua verərək Novruz bayramının xalqımıza xoşbəxtlik, firavanlıq və bol ruzi-bərəkət gətirməsini arzuladı. Kosa və Keçəlin duzlu-məzəli söhbətləri və zarafatları, həm rayonumuzun, həm də respublikamızın tanınmış incəsənət ustalarının bir-birindən şən mahnıları, milli geyimli oğlan və qızların rəqsləri şənliyə rəngarənglik qatmışdı. Müğənnilərin ifasında yurdumuza qədəm qoyan baharı, vətənimizi tərənnüm edən bayram abhavalı mahnılar hamıda xoş ovqat yaratdı, onların bayram sevincini daha da artırdı.

***"Hacıqabul"***

# Cocuq Mərcanlıda görüş





***Azəbaycan xalqının milli bayramı olan Novruzun yüksək səviyyədə təşkili məqsədilə Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi bir sıra tədbirlər həyata keçirmişdir.Belə tədbirlərdən biri ATİAHİ RK-nin Rəyasət Heyətinin qərarına əsasən Cəbrayıl rayonunun Socuq Məcanlı kənd tam orta məktəbinin müəllim və şagird kolllektivi və əraziyə yaxin olan "N " saylı hərbi hissənin əsgər və zabitləri ilə görüşlərin keçirilməsi idi. ATİAHİ Respublika Komitəsinin məsul işçiləri və yaxın rayon həmkarlar komitələrinin sədrləri mədəni-hamilik köməkliyi məqsədilə 15 mart 2019-cu il tarixdə həmin görüşdə iştirak etdilər. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələri bu xeyirxah və nəcib işə qatılaraq əsgər və zabitlər qarşısında bayram konserti proqramı ilə çıxış etdilər.***

1994-cü ildə həyata keçirilən "Horadiz" əməliyyatı zamanı Füzuli rayonunun 20-dən çox yaşayış məntəqəsi ilə yanaşı, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi də işğaldan azad edilib. Lakin Lələtəpə yüksəkliyinin erməni işğalçılarının nəzarətində olması kənd sakinlərinin ora qayıtmasını mümkünsüz edirdi. Lələtəpə yüksəkliyi işğaldan azad olunduqdan sonra Cocuq Mərcanlı kəndinin təhlükəsizliyi möhkəmləndirildi və ölkə rəhbərinin sərəncamına müvafiq olaraq Cocuq Mərcanlı kəndinin bərpası və tikinti işləri başlanmışdır.

Cocuq Mərcanlı kəndi Cəbrayıl rayonunun işğaldan azad edilmiş yeganə yaşayış məntəqəsidir. Yeni salınmış qəsəbədə evlər, yeni orta məktəb tikilmişdir.Şəhid Novruz Aslanovun adını daşıyan tam orta məktəbin direktoru Zamin Həziyev bizi-gələn qonaqları mehribancasına qarşıladı. O qeyd etdi ki, Cocuq Mərcanlı kənd tam orta məktəbində 88 şagird təhsil alır .Onların tədrisi ilə 22 müəllim məşğul olur. Zamin müəllim gələn qonaqlara məktəbin tarixi haqqında məlumat verdi. Qeyd etdi ki, əvvəllər Cocuq Mərcanlı kənd tam orta məktəbi bir il yarım İmişli rayonu ərazisində-Bəhrəmtəpə qəsəbəsində vaqonlarda fəaliyyət göstərib. Sonralar Bakı şəhəri, Xətai rayonunda 20 ildən çox fəaliyyət göstərib. Azərbaycan Ordusunun 2016-cı ilin uğurlu aprel döyüşlərindən sonra kəndə qayıdış başlanıb.Məktəbin binövrəsini demək olar ki, 44 nəfər məktəbli şagird və 16 nəfər müəllm kollektivi ilə yaratmışıq. Məktəbin şagirdləri gələn qonaqları şeirlə qarşıladılar. Şeirlərdə Vətənə, torpağa məhəbbət, düşmənə nifrət hiss olunurdu. Sonda xatirə şəkili çəkildi.

***Kifayət Əmirbəyova,***
***ATİAHİ rayon komitəsinin sədri***



# Aqrar inkişaf könüllülərinin təsis yığıncağı keçirilmişdir

***Bu günlərdə rayon Aqrar İnkişaf Mərkəzində "Aqrar inkişaf könüllüləri" hərəkatının yaradılması ilə bağlı yığıncaq keçirilmişdir. Yığıncağı açan Mərkəzin direktoru İkram Əliyev könüllülər hərəkatının məram və vəzifələri barədə məlumat vermişdir. Qeyd olunmuşdur ki, yeni yaradılacaq "Aqrar inkişaf könüllüləri" hərəkatı aqrar sektorun inkişafına ictimai dəstəyi nümayiş etdirmək, vətəndaşların və ya fermerlərin aqrar sahədəki problemlərini yerində müəyyən etmək və həlli yollarını axtarmaq, gənc mütəxəssislərin ideyalarını praktiki olaraq reallaşdırmaq və cəmiyyətin diqqətini bu sahəyə yönəltmək məqsədi daşıyır.***

Yığıncaqda iştirak edən rayonumuzdan və Şirvan şəhərindən olan, Dövlət Aqrar Universitetində təhsil alan gənclərdən Əmrah Oruclu, Səidə Həsənova, Həsən Xudaverdiyev, Orxan Hüseynov, Fuad Pənahlı, Emil Haqverdiyev, Ülfət Baxışov, Bəybala Babayev, Qürbət Baxışov "Aqrar könüllülər hərəkatı"nın yaradılmasını təqdir edərək öz fikir və mülahizələrini söylədilər.

Geniş diskussiya şəraitində keçən yığıncaqda Meyniman kəndindən olan fermer Söhrab Baxışovun çıxışı xüsusi ilə iştirakçılar tərəfindən maraqla qarşılandı. O, qeyd etdi ki, cavan çağlarından torpağa bağlanmışam. Pambıq da, taxıl da əkib becərmişəm. Bu əməyimə, zəhmətimə görə ulu öndərimiz məni "Əməkdə fərqlənməyə görə" medalı ilə təltif edib. İndi də torpaqdan möhkəm yapışmışam. Ötən il hər hektardan 40 sentnerə yaxın taxıl götürmüşəm. Bilin ki, torpaq onun əziyyətini çəkənləri həmişə sevindirir.

**(Davamə səh. 4-də)**

*Aprel zəfərindən 3 il ötür*

# Aprel döyüşlərinin qəhrəmanı

**Azərbaycanın hərb tarixinə qızıl hərflərlə həkk olunmuş 2016-cı ilin Aprel zəfərindən bizi 3 illik zaman kəsiyi ayırır.**

**2016-cı il aprelin 1-dən 5-dək Azərbaycan ordusu öz doğma torpaqlarının müdafiəsinə qalxaraq uğurlu əks hücum əməliyyatı keçirdi və düşmənə sarsıdıcı zərbələr endirdi. Ordumuzun müzəffər döyüş bacarığı, zabit və əsgərlərimizin şücaət və qəhrəmanlığı nəticəsində Füzuli, Cəbrayıl, Ağdərə rayonlarının minlərlə hektar ərazisi erməni işğalından azad edildi, bir neçə strateji yüksəklik, o cümlədən Lələtəpə yüksəkliyi ələ keçirilərək ordumuzun nəzarətinə götürüldü. Aprel döyüşləri həmçinin, xalqımızın vətənpərvərlikn ruhunu, qələbəyə inamını daha da artırdı.**



Şanlı Aprel döyüşlərinin fəal iştirakçılarından biri də həmyerlimiz, Hacıqabulda böyüyüb boya-başa çatmış Tahir İman oğlu Misirxanovdur.

Tahir Misirxanov 1988-ci il avqustun 8-də Hacıqabul şəhərində anadan olub. Şəhər 2 saylı tam orta məktəbini 2005-ci ildə bitirdikdən sonra 2006-cı ilin oktyabr ayından 2008-ci ilin aprel ayına kimi Gəncə şəhərində Milli Ordu sıralarında N saylı hərbi hissədə həqiqi hərbi xidmətdə olub. 2010-cu ilin oktyabr ayından 2011-ci ilin yanvar ayına kimi Respublika Müdafiə Nazirliyi Təlim Tədris Mərkəzində (TTM) 3 aylıq hazırlıq kursunda oxuyub. 2011-ci ilin yanvar ayından Ağcəbədi rayonunda yerləşən N saylı hərbi hissədə müddətdən artıq hərbi qulluqçu-artilleriya divizyonunda top komandiri kimi fəaliyyətə başlayıb.2014-cü ilin mart ayına kimi top komandiri kimi işinə məsuliyyətlə yanaşıb, komandanlığın bütün əmr və tapşırıqlarını lazımi dəqiqlik və çevikliklə yerinə yetirib. 2014-cü ilin mart ayından etibarən Beyləqanda N saylı hərbi hissədə tank əleyhinə raket kompleks batareyasında manqa komandiri kimi müddətdən artıq hərbi xidmətini davam etdirib.

Cəsur, igid həmyerlimiz 2016-cı il aprelin 1-dən 5-dək Horadiz istiqamətində ordumuzun ermənilərin təxribatlarına qarşı əks-hücum əməliyyatlarında iştirak edib, Füzulinin Lələtəpə yüksəkliyinin düşmən işğalından azad edilməsində rəşadət və hünər göstərib. Düşmənə qarşı sonsuz nifrət və intiqam hissi ilə vuruşan Tahir Misirxanov döyüş meydanında göstərdiyi igidliyə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 19 aprel 2016-cı il tarixli sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeninə layiq görülmüşdür. Qəhrəman həmyerlimizə bu ali mükafatı general-mayor Mais Bərxudarov təqdim etmişdir.

Bax, budur günümüzün qəhrəmanı! Budur Azərbaycan əsgərinin, Azərbaycan zabitinin yenilməz, mərd Siması!

Tahir Misirxanov döyüş zonasında, xidməti işində qazandığı uğurlarla kifayətlənməyərək öz üzərində daim çalışır, döyüş qabiliyyətini və bacarığını artırır, təlim və döyüş hazırlığının sirlərini mükəmməl öyrənir. O 2017-ci ilin iyul ayından sentyabr ayına kimi Silahlı Qüvvələrin Təlim Tədris Mərkəzinin gizir hazırlığı kursunu müvəffəqiyyətlə başa vuraraq gizir rütbəsinə yiyələnmişdir. Hazırda Beyləqan rayonunda N saylı hərbi hissədə döyüş maşın komandiri kimi xidməti işini davam etdirir.

Tahir Misirxanov ailəlidir. İki qızı bir oğlu var. Oğlu İmanın da özü kimi vətənpərvər, elinə, torpağına bağlı olacağına inanır.

Aprel döyüşlərinin 3-cü ildönümü ərəfəsində Azərbaycan Bayrağı ordenli cəsur həmyerlimiz ilə görüşüb söhbət etdik. Söhbət əsnasında qeyd etdi ki, Aprel döyüşləri onu göstərdi ki, Azərbaycan xalqı öz ərazi bütövlüyünü nəyin bahasına olursa olsun bərpa edəcəkdir. Aprel döyüşləri ordumuzun peşəkarlığını, Vətən torpaqları uğrunda canını, qanını əsirgəməyən mərd oğullarımızın, əsgər və zabitlərimizin sücaətini, hünərini, eyni zamanda möhtərəm prezidentimiz İlham Əliyevin sərkərdəlik məharətini göstərdi. Aprel zəfərini xalqımıza Ali Baş Komandanımız İlham Əliyev yaşatdı. Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Lələtəpə əməliyyatı bizim qəhrəmanlıq rəmzimizdir.Lələtəpə tarixə düşdü. Minlərlə hektar torpağa bu gün Azərbaycan Ordusu tam nəzarət edir. Bu o yüksəklikdir ki, işğaldan azad edilənə qədər Ermənistan silahlı bölmələri Horadiz şəhəri başda olmaqla, Füzuli rayonunun bütün yaşayış məntəqələrini, o cümlədən Azərbaycan Ordusunun mövqelərini açıq-aydın müşahidə edirdilər, istənilən yerə atəş zərbələri endirə bilirdilər.

Artıq belə bir təhlükə yoxdur. Azərbaycan Ordusu öz ata-baba torpaqlarını göz-bəbəyi kimi qoruyur. Milli Ordumuzun bir zabiti kimi mən hər an Ali Baş Komandanın əmri ilə işğal altında qalan ərazilərimizin düşməndən azad olunması üçün döyüşlərə hazıram.

Biz də o günün uzaqda olmadığına inanırıq və səninlə fəxr edirik, igid eloğlumuz Tahir!

***Nazim Zeynalov***

*Həkim məsləhəti*

# Baş ağrıları

Elə bir insan tapmaq çətindir ki, nə vaxtsa baş ağrılarından şikayət etməsin. Həyatımız boyunca hər birimiz baş ağrıları ilə üzləşirik. Bəzilərimiz "hamıda ağrıdır, bir azdan keçəcək" söyləyir, digərlərimiz ağrıkəsici dərmanlar qəbul etməyə üstünlük veririk, çox az qismimiz isə həkimlə məsləhətləşirik. Poliknikaya müraciət edən xəstələr arasında baş ağrılarından şikayətə daha çox rast gəlinir. Statistik məlmatlara görə insanların 60-70 faizi baş ağrılarından əziyyət çəkir.

Baş ağrıları başla boyun arasında ağrı hissinin duyulması ilə səciyyələnir və sifətdə, boyun əzələlərində gərginlik hissi ilə müşayiət olunur. Bu hal təkcə başla məhdudlaşmayıb, insanın bütün vücudunda narahatlıq və diskomfort duyğusu oyadır. Ağrı insanın orqanizminin təhlükə anında verdiyi siqnaldır. Təbiətin ən kamil əsəri olan insanın bütün orqan və hüceyrələri "Orqanizimin qoruyucu köpəyi" adlandırılan ağrı reseptorları, yeni sinir ucları ilə təchiz olunmuşdur. İnsan bədəninin baş və beyin nahiyəsi ağrı hissinə daha həssasdır və bu nahiyələrin cüzi dərəcədə qıcıqlanması baş ağrıları yaradır.

Gündəlik həyatda rastlaşdığımız əsəb gərginliyi və stress halı, xroniki yorğunluq vəziyyəti baş ağrılarının meydana çıxmasına təkan verir. Hava şəraitinin kəskin dəyişməsi, maqnit burulğanlarının yaranması, rejimsiz qidalanma, yuxusuzluq baş ağrılarına səbəb olur. Baş ağrıları insanların əhval-ruhiyyəsi, hiss və emosiyaları, problem və fikirləri ilə əlaqədar və digər bir-birindən fərqlənən səbəblərdən yaranır.

Baş ağrılarını iki əsas qrupa bölmək olar: birincili və ikincili. Birincili baş ağrıları dedikdə digər xəstəliklərin əlaməti deyil, ayrıca bir xəstəlik nəzərdə tutulur. Ən çox rast gəlinən baş ağrıları gərginlik baş ağrıları və miqrendir. Baş və boyun əzələlərinin gərginləşməsi ilə səciyyələnən gərginlik baş ağrıları insanı həyəcanlandıran hallardan sonra baş verir, vaxt çatışmamazlığına məruz qalan insanlarda meydana çıxır. Gərginlik baş ağrıları əsasən qəfil xəbərdən, imtahan həyəcanından, güclü inciklikdən və digər buna bənzər hallardan sonra yarana bilər. Belə ağrılar uzun müddət masa arxasında, kompüter önündə qalanlarda daha çox rast gəlinir.

Miqren isə damar mənşəli baş ağrısıdır. Beyin qidalarından damarların daralıb genişləməsi miqren tutmasının səbəbi olur və qadınlarda daha çox baş verir. Miqren tutmaları zamanı alında, çox zaman isə boyunun bir tərəfində nəbz kimi döyünən, pulsasiyaedi ağrılar yaranır. Miqren tutmalarından öncə göz önündə parlaq işıqlar, dalğalanan xətlər və qaranlıq nöqtələr görünə bilər. Miqren tipli baş ağrıları baş gicəllənməsi, ürək bulanması, səs-küyə qarşı həssaslıqla müşayiət olunur.

İkincili baş ağrıları isə onlarla başqa xəstəliklərin əlaməti kimi meydana çıxır və simptomatik baş ağrıları adlanır. Tibbi praktikada baş ağrıları qədər ən müxtəlif çalarlarda meydana çıxan ikinci bir əlamət yoxdur. Sağlam insanlar qapalı məkanlarda uzun müddət qaldıqda beynində oksigen çatmamazlığı nəticəsində baş ağrıları meydana çıxır. Baş ağrıları dəm qazı, boya buxarları, kəskin ətirlər nəticəsində də yaranır. Son zamanlar psixi həyəcan və depressiya nəticəsində əmələ gələn baş ağrıları geniş yayılmışdır. Üz nahiyəsində keyləşmə ilə müşayət olunan baş ağrıları üz sinirinin iltihabı üçün səciyyəvidir. Alın və gicgah nahiyyəsində olan ağrılar isə burun ətrafı ciblərin iltihabı-qaymarit və farinqit xəstəliyinin əlamətidir. Bəzi dərman maddələrinin qəbulu zamanı baş ağrıları yaranması ehtimalı vardır. Baş ağrıları qan təzyiqinin dəyişməsinin əlamətlərindən biridir. Qan təzyiqinin aşağı düşməsi nəticəsində yaranan baş ağrıları adətən yuxudan sonra, səhər saatlarında əmələ gəlir, gicgah nahiyəsini əhatə edir, ikitərəfli və göynədici olur. Qan təzyiqinin yüksəlməsi də baş ağrıları ilə meydana çıxır. Qəflətən başlayan, huşun dumanlanması və bədənin müəyyən nahiyəsində hissiyyatın azalması ilə müşayət olunan baş ağrıları son dərəcə qorxuludur. Bu hal insultun, beyinə qan sızmanın əlaməti ola bilir. Baş ağrıları tez-tez təkrarlanmsı və getdikcə güclənməsi ciddi siqnaldır. Və vaxt itirmədən həkimə müraciət olunmalıdır. Çünki, vaxtında aşkar edilən xəstəlik daha tez və uğurlu müalicə olunur.

***Aysel İbrahimova,***
***Mərkəzi Rayon Poliklinikasının həkimi***

# Vətənimizlə tanışlıq şagirdlərin dünyagörüşünün formalaşmasında mühüm rol oynayır

***Martın 23-də "Ölkəmizi tanıyaq"tur aksiyasında iştirak edən məktəblilərin yola salınma mərasimi keçirildi. Əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət edildi, önünə gül dəstələri qoyuldu. Rayon İcra Hakimiyyətinin 1-ci müavini Aslan Səmədov şagirdlər qarşısında çıxış edərək onlara uğurlu yol arzuladı.***



Sonra "Ölkəmizi tanıyaq" tur-aksiyasının iştirakçıları Quba-Qusar-Xaçmaz marşrutu üzrə yola salındılar.

Tur-aksiya iştirakçılarının üz tutduqları ilk məkan Quba rayonunda yerləşən "Cənnət bağı " adlanan otel oldu, məktəblilər orada nahar və istirahət etdilər. Daha sonra tur-aksiya iştirakçılarının Quba rayon İcra Hakimiyyətinin məsul işçiləri ilə görüşü təşkil olundu. Şagirdlərimizdən XI sinif şagirdi Səma Musayeva çıxış etdi və rayon məktəbliləri adından bu layihəni onlara bəxş edən ölkə Prezidentinə minnətdar olduqlarını vurğuladı. Aksiya iştirakçıları əvvəlcə Heydər Əliyevin abidəsini ziyarət etdilər. Daha sonra onlar Heydər Əliyev Mərkəzində oldular və muzeydəki eksponatlarla, Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən fotoşəkil və sənədlərlə tanış oldular.

"Ölkəmizi tanıyaq" tur-aksiyası çərçivəsində respublikamızın şimal-şərq bölgəsinə ekskursiyaya çıxan Hacıqabul, Biləsuvar, Masallı, Cəbrayıl, Xocavənd, Şuşa, Zəngilan rayonlarının məktəbliləri səfərin ikinci günü Quba şəhərinin tarixi məkanını və görməli yerlərini gəzdilər.Qədim Qubaya ekskursiya dağ yəhudilərinin yığcam yaşadıqları Qırmızı qəsəbədən başladı.Şagirdlər qəsəbədə salınan Heydər Əliyev parkını gəzdi, Qudyalçayın üzərindəki Tağlı körpü ilə tanış oldular.

Qəsəbədəki Sinaqoqla tanışlıq zamanı şagirdlərin diqqətinə çatdırıldı ki, uzun illərdir buradakı yəhudilər azərbaycanlılarla birlikdə sülh, əmin-amanlıq şəraitində yaşayırlar. Dağ yəhudilərinin Quba ərazisində yığcam şəkildə məskunlaşmasının tarixi XVIII əsrin ortalarına təsadüf edir. Quba xanlığına Fətəli xanın rəhbərlik etdiyi dövrlərdə bütün ətraf ərazilərdə yaşayan yəhudilər bura köçməyə başlayıblar. Həmin vaxt salınan yəhudi məhəllələrində 10-dan çox sinaqoq inşa olunub. Sonra məktəblilər Qubada deyil, bütün şimal - şərqi Azərbaycanda ən qədim dini mərkəzlərdən biri olan Cümə məscidi ilə tanış oldular.

1802 -ci ildə tikilən Cümə məscidi zəngin memarlıq üslubuna malikdir.

Tur-aksiya iştirakçıları şəhərdə fəaliyyət göstərən "Qədim Quba"xalçaçılıq müəssisəsində xalça toxunması prosesini izləyiblər.

Martın 25-də şagirdlərimiz Azərbaycanın şimal qapısı sayılan Qusara səfər etdilər .Məktəblilər Qusar şəhərinin girişində yerləşən Bayraq Meydanında qarşılandılar. Rayon İcra Hakimiyyətinin, Mədəniyyət və Turizm, Təhsil Şöbələrinin nümayəndələri şagirdlərimizə Qusar rayonu haqqında ətraflı məlumat verdilər. Qeyd olundu ki, Qusar təkcə təbii gözəllikləri ilə deyil, həm də qədim mədəniyyət abidələri, sənətkarlığı ilə məşhurdur.

Sonra tur-aksiya iştirakçıları "Şahdağ" Turizm Mərkəzi ilə tanış oldular. Kanatlarda Şahdağa ekskursiya edən şagirdlərimiz buranın ağ -qara, dumana bürünmüş zirvəsində qartopu oynadılar, şəkillər çəkdirdilər, buradakı gözəllikdən böyük zövq aldılar. Şahdağın zirvəsində məktəblilərə müxtəlif xidmətlər göstərildi və onlar bu xidmətlərdən dəyərincə yararlandılar. Daha sonra şagirdlərimiz Həzrə kəndində Şeyx Cüneyd türbəsini ziyarət etdilər, onlara türbə haqqında geniş məlumat verildi.

Şagirdlərimiz şəhərdəki Heydər Əliyev mərkəzində Ulu öndərin zəngin irsini və fəaliyyətini əks etdirən foto şəkillərə baxdılar. Ulu öndərin möhtəşəm abidəsinin önündə şəkil çəkdirdilər.

Daha sonra şagirdlər Qusar Tarix Diyarşünaslıq muzeyinə ekskursiya etdilər. "Şahdağ- Quba " otelində 8 rayonun məktəbliləri arasında intellektual oyun keçrildi. Hər rayonun şagirdlərindən 18-nəfər seçilib komandalara bölündü. Müxtəlif mövzulu suallar şagirdlərə ünvanlandı və müəyyən vaxt çərçivəsində suallar cavablandırıldı. Bu yarışmada şagirdlərimiz çox böyük fəallıq göstərdilər, 3-cü yerə və kuboka sahib oldular.

Səhəri gün isə-martın 26-da şagirdlərimiz Xaçmaz şəhərinə gəldilər. Xaçmaz tarixi-memarlıq abidələri ilə məşhurdur. Füsunkar təbiəti , nadir tarixi -memarlıq abidələri, inkişaf etmiş sənətkarlığı , həmçinin zəngin irsinin qorunması nəticəsində Xaçmaz bu gün Azərbaycanda turizmin yüksək səviyyədə inkişaf etdiyi bölgələrdən birinə çevrilib. Xaçmazı həqiqətən də muzeylər şəhəri adlandırmaq olar.

Əvvəlcə tur-aksiya iştirakçıları Xaçmazda Heydər Əliyev Mərkəzi ilə tanış olub, Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən fotoşəkillərə baxdılar.Daha sonra məktəblilər Şəxsiyyətlər muzeyinə tamaşa etdilər. Daha sonra isə tarix -diyarşünaslıq, incəsənət muzeylərinə ekskursiya etdilər. Çox böyük təəssüratlarla oranı tərk etdilər.Fəvvarələr Meydanına gəzinti təşkil olundu. Fəvvarələr Meydanında yaradılmış şəlalə, saat qülləsi, müxtəlif heyvan növləri ilə əhatə olunmuş dağ, Azərbaycanın şair və yazıçılarının büstləri, gül -çiçəklər hər birimizdə gözəllik duyğusu oyatdı. Çox zəngin təəssüratlarla Xaçmaz şəhərindən ayrılıb doğma Hacıqabulumuza yol aldıq.

İstər şagirdlərimiz, istərsə də müəllimlərimiz Quba-Qusar-Xaçmaz rayonlarına səfərdən çox məmnun və xoş təəssüratlarla qayıtdıq.

***Adilə Salmanova,***
***şəhər 1 saylı tam orta məktəbin təşkilatçısı***

# HACIQABUL

№ 06 (708) 02 aprel 2019-cu il


# 2018-ci ildə Hacıqabul rayonunda əmək bazarının vəziyyəti

Ölkədə son illərdə aparılan sosial-iqtisadi siyasətin aparıcı istiqamətlərindən biri də məşğulluğa dair siyasətin qurulması və əmək resurslarından səmərəli istifadə edilməsidir. Hacıqabul rayonunda da bu istiqamətdə əsaslı işlər görülmüş, əmək bazarının formalaşmasında keyfiyyət dəyişikliklərinə nail olunmuşdur.

2018-ci ilin yanvar-dekabr aylarında Hacıqabul rayonunda iqtisadi fəal əhalinin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,2 faiz artaraq 36,6 min nəfər olmuşdur. İqtisadi fəal əhali rayon üzrə ümumi əhalinin 48,4 faizini təşkil etmişdir.

İqtisadi fəal əhalinin tərkibində məşğul əhalinin xüsusi çəkisi 95,1 faiz, işsiz əhalinin xüsusi çəkisi isə 4,9 faiz təşkil etmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar-dekabr aylarında məşğul əhalinin sayı 1,8 faiz, işsiz əhalinin sayı isə 3,4 faiz artmışdır. Belə ki, 01.01.2019-cu il tarixə rayonda məşğul əhalinin sayı 34823 nəfər, işsiz əhalinin sayı isə 1795 nəfər qeydə alınmışdır. İlin sonuna rayonda məşğul əhalinin 45,1 faizi və ya 15701 nəfəri şəhər yerlərində, 54,9 faizi və ya 19122 nəfəri isə kənd yerlərində qeydiyyatda olmuşdur. İşsiz əhalinin 698 nəfəri şəhər yerlərində, 1097 nəfəri isə kənd yerlərində qeydə alınmışdır. 01.01.2019-cu il tarixə rayon məşğulluq mərkəzində 652 nəfər rəsmi işsiz, 97 nəfər isə müavinət alan şəxs kimi qeydə alınmışdır. Rəsmi işsizlərin 338-i kişi, 314-ü qadın olmuşdur. İlin sonuna müavinət alanlardan 47-si kişi, 50-si isə qadınlardır. 2018-ci ilin yanvar-dekabr aylarında 785 nəfər məşğulluq xidmətinə iş axtaran kimi müraciət etmiş, 471 nəfər isə işə düzəlmişdir. Araşdırılan dövrdə rayonda məşğul əhalinin tərkibində muzdla işləyənlərin sayı 7,6 min nəfər olmuşdur ki, bunun da 66,4 faizi dövlət, 33,6 faizi isə qeyri-dövlət sektorunda çalışanlardır. Muzdla işləyənlər rayon üzrə məşğul əhalinin 21,7 faizini təşkil etmişdir. Rayonun iqtisadiyyatının ayrı-ayrı sahələrində muzdla işləyənlərin 32,5 faizi qadınlar olmuşdur.

2018-ci ilin yanvar-dekabr aylarında rayon üzrə muzdla işləyənlərin təqribən 34,2 faizi istehsal, 65,8 faizi isə xidmət sahələrində çalışmışlar.

Rayon üzrə muzdla işləyənlərin 13,7 faizi kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatı, 7,7 faizi emal sənayesi, 3,0 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 8,1 faizi su təchizatı, tullantıların istehsalı və bölüşdürülməsi, 1,7 faizi tikinti, 16,6 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 11,8 faizi nəqliyyat və anbar təsərrüfatı, 0,5 faizi rabitə, 0,2 faizi maliyyə və sığorta fəaliyyəti, 5,8 faizi dövlət idarəetməsi və müdafiə, sosial təminat sahələrində, 19,5 faizi təhsil, 6,3 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 5,1 faizi isə iqtisadiyyatın digər sahələrində qeydə alınmışdır. Muzdla işləyənlərin əksəriyyəti iri və orta müəssisələrdə əmək fəaliyyəti ilə məşğul olmuşdur.

Dövlətin ən mühüm qayğılarından biri də əhalinin sosial rifahının gücləndi-rilməsidir. Sosial müdafiə sahəsində əsas məqsəd əmək və məşğulluq fəaliyyətini gücləndirərək əhalinin həyat səviyyəsini yüksəltməkdir. Bu istiqamətdə əsas meyar-lardan biri də orta aylıq nominal əmək haqqı hesab edilir. 2018-ci ilin yanvar-dekabr aylarında Hacıqabul rayonunda iqtisadiyyatın bütün sahələri üzrə muzdla işləyən bir işçiyə düşən orta aylıq nominal əmək haqqı ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,8 faiz artaraq 334,3 manat olmuşdur. Rayonda iqtisadiyyatda muzdla çalışan bir qadın işçinin orta aylıq əmək haqqı göstəricisi 231,5 manat olmuşdur.

2018-ci ilin yanvar-dekabr aylarında rayonda ən yüksək orta aylıq nominal əmək haqqı göstəricisi maliyyə və sığorta fəaliyyəti sahəsində -1152,8 manat qeydə alınmışdır. Orta aylıq nominal əmək haqqı göstəricisi iqtisadiyyatın kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 233,6 manat, emal sənaye sahəsində 335,6 manat, elektrik enerjisi, təbii qaz və buxar istehsalı, bölüşdürülməsi sahəsində 534,2 manat, su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində 226,0 manat, tikinti sahəsində 280,3 manat, ticarət sahəsində 253,1 manat, nəqliyyat və anbar təsərrüfatı sahəsində 602,8 manat, rabitə sahəsində 347,2 manat, maliyyə sahəsində 1152,8 manat, dövlət idarəetməsi və müdafiə, sosial təminat sahəsində 384,7 manat, təhsil sahəsində 370,3 manat, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi sahəsində 202,9 manat, digər kommunal, sosial və şəxsi xidmətlərin göstərilməsi sahəsində isə 253,1 manat olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə orta aylıq nominal əmək haqqı göstəricisi təhsil sahəsində 4,3 faiz, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi sahəsində 9,9 faiz, dövlət idarəetməsi və müdafiə, sosial təminat sahəsində 12,1 faiz, maliyyə və sığorta fəaliyyəti sahəsində 17,3 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 13,5 faiz, tikintidə 14,1 faiz, sənayedə 6,0 faiz artmışdır.

Ölkədə aparılan sosial-iqtisadi layihələr iqtisadiyyatda mühüm müsbət nəticələrə səbəb olmuş, makroiqtisadi sabitliyə nail olunaraq ardıcıl iqtisadi inkişaf təmin edilmişdir. Bu baxımdan ölkə Prezidentinin müvafiq fərmanları ilə təsdiq olunmuş 2009-2013, 2014-2018-ci illərdə Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının rolu xüsusilə önəmlidir. 2009-2018-ci illərdə proqramların icrası istiqamətində Hacıqabul rayonunda 8263 yeni iş yeri açılmış, onların da bilavasitə 6386-sı daimi iş yerləri olmuşdur. Daimi iş yerlərinin 16,4 faizi müəssisə və təşkilatlarda, 79,8 faizi isə fiziki şəxslər tərəfindən yaradılmışdır.2018-ci ilin yanvar-dekabr aylarında rayon ərazisində 1259 yeni iş yeri açılmışdır ki, bunların da bilavasitə 542-si daimi iş yerləri olmuşdur. 2018-ci ilin yanvar-dekabr aylarında rayonda yeni açılmış daimi iş yerlərinin 644-nə işçilər qəbul edilmişdir.

***Rayon Statistika İdarəsi***

# Dostluq görüşləri



***Bu günlərdə Şirvan şəhər Uşaq Musiqi məktəbinin müəllim və şagird kollektivi "Dostluq görüşləri"adı altında Hacıqabul Uşaq Musiqi məktəbində qonaq olmuşdur. Məktəbin direktoru Rahib Məmmədov çıxış edərək 1993-cü ildən indiyədək davam edən belə gözəl ənənənin davam etdirilməsini yüksək qiymətləndirmişdir.***

Tədbirin bədii hissəsi Hacıqabul şəhər Uşaq Musiqi məktəbinin xor kollektivinin ifası ilə başlamış, sonra səhnə Şirvan şəhər Uşaq Musiqi məktəbinin müəllim və şagird kollektivinin ixtiyarına verilmişdir. Onların ifasında Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərləri səslən-dirilmişdir.

***Lalə Zeynalova,***
***məktəbin müəllimi***

# Tədbir keçirilmişdir



**Şəhər 2 saylı tam orta məktəbdə "Xocalı harayı adlı " ədəbi-bədii gecə keçirilmişdir.**

Tədbirdə məktəbin V-VIII sinif şagirdləri və müəllimləri iştirak etmişdir.

Əvvəlcə şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edilmişdir. Sonra faciə ilə bağlı video-çarx nümayiş etdirilmişdir.

Şagirdlərin "Ana" mahnısının həzin melodiyası altında ifa etdikləri şeirlər hamını kövrəltdi.

***Kübra Quliyeva,***
***şəhər 2 saylı məktəbin dil-ədəbiyyat müəllimi***

## Yaman dəyişib

Bir də baxdım saçlarıma dən düşüb,
Əllərimdən uçub gedib gəncliyim.
Çox istədim dönüb geri qayıdım,
Hiss etdim ki, halım yaman dəyişib.

Anladım ki, əsər yoxdur o məndən,
Xatirələr qalıb yalnız keçmişdən.
Qırışan üz, əsən əllər, ləng addım,
Bunlar hamısı xəbər verir ölümdən.

İnsanın həyatı çox qəribədir,
Yaşayıb-yaradır sonrasa gedir.
Qarışır torpağa izi də itir,
Bir daş parçasında ismi görünür.

## Vətənimiz

Hər deyəndə ana Vətən,
Yada düşür sərhəd həmən.
Cəsur, igid övladların,
Keşiyində durub, Vətən!

Qurban olaq bu Vətənin,
Hər bir qarış torpağına.
Həlak olan şəhidlərin,
Axan hər damla qanına.

Arzum budur azad olsun,
Şuşa, Laçın, həm Qarabağ.
Canımızı qurban verib,
Torpaqları geri alaq.

***H.Aybəniz***

# Aqrar inkişaf könüllülərinin təsis yığıncağı keçirilmişdir

**(Əvvəli səh. 2-də)**

Tədbirdə iştirak edən Azərbaycan Dövlət Aqrar Universiteti menecment və aqrar marketinq kafedrasının müdiri, iqtisad üzrə fəlsəfə doktoru, həmyerlimiz Asif Həsənov çıxış edərək bildirdi ki, aqrar sahədə könüllülər hərəkatı Respublika Kənd Təsərrüfatı Nazirliyi tərəfindən təşkil olunmuşdur. Ölkə Prezidenti İlham Əliyev aqrar sahənin inkişafını Azərbaycanın iqtisadiyyatının inkişafında başlıca şərt hesab etmiş və aqrar sektora hər zaman önəm verərək prioritet sahə elan etmişdir.Natiq onu da qeyd etdi ki, Dövlət Aqrar Universitetində mütəxəssis kadrların yetişdirilməsinə böyük diqqət yetirilir. Aqrar inkişaf könüllülərinin strateji baxışı müasirliyi və ənənvi dəyərləri əsas tutaraq, aqrar sahənin hərtərəfli inkişafında rolu olan zəhmətkeş və yaradıcı düşüncəyə sahib insanların cəmiyyətdə aktiv iştirakını artırmaqdır.

Yığıncağın sonunda Hacıqabul rayonu üzrə "Aqrar inkişaf könüllüləri" hərəkatının heyəti elan oluındu. Dövlət Aqrar Universitetinin baytarlıq fakültəsinin tələbəsi Səidə Həsənova heyətin sədri seçildi.

İki oğlum- Qürbət və Ülfət də bu gün mənimlə birgə bu yığıncaqda iştirak edir. Onlar gələcəkdə meliorasiya və su təsərrüfatı üzrə mütəxəssis olacaqlar. Mən bir torpaq adamı kimi rayonumuzda yaranan aqrar könüllülər hərəkatını dəstəkləyirəm.

***Nazim Zeynalov***

# Bir əsrin qanlı tarixi

***Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilib. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır.***

Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırım da tarixin açılmamış səhifələrindən biridir.

Martın 29-da şəhər Uşaq Musiqi məktəbində 31 Mart Azərbaycanlıların soyqırımı günü ilə bağlı tədbir keçirilmişdir.Məktəbin müəllimi Lalə Zeynalova soyqırımla bağlı geniş məlumat vermişdir.Sonra 31 Mart Azərbaycanlıların soyqırımı ilə bağlı videoçarx nümayiş etdirilmişdir.

***L.Zeynalova***

## Allah rəhmət eləsin!

Rayon Təhsil Şöbəsinin müdiri Şükür Məmmədov və kollektivi şəhər 5 saylı tam orta məktəbin müəllimi Mehriban Məmmədovaya əzizi

**Əlinin**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.


**HACIQABUL**

**Baş redaktor:**
Xuraman Feyruzqızı

**Həmtəsisçi:**
Qəzetin jurnalist kollektivi

Qəzet "Hacıqabul" qəzetinin kompyuter mərkəzində yığılmışdır, "Son Dakika" çap evində ofset üsulu ilə çap olunmuşdur

Kapital Bank Hacıqabul filialı
İndeks: 66975
Lisenziya: № 022579
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**Ünvan:** Hacıqabul şəhəri, İ.Qayıbov küçəsi 4.
**Tel:** 4-32-00,
**Tiraj:** 1200